**Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Kollegiya üzvlərinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI[1]

“Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 sentyabr tarixli, 583 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə”nin 17-ci bəndinə uyğun olaraq və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollegiya üzvlərinin sayı 11 nəfərdən ibarət müəyyən edilsin.

*2. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Kollegiyası aşağıdakı tərkibdə təsdiq edilsin:* [2]

***Kollegiyanın sədri***

*Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri*

***Kollegiyanın üzvləri:***

*Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavinləri;*
*Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri;*
*Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının rəhbəri;*
*Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının ətraf mühit siyasəti, ekoloji vəziyyətin təhlili və qiymətləndirilməsi şöbəsinin müdiri;*
*Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri;*
*Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının ekoloji maarifləndirmə və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri;*
*Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin direktoru;*
*Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin rəisi.*

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 12 avqust 2002-ci il
129

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 14 fevral 2006-cı il tarixli 47 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 2, maddə 195**)
2. 10 iyul 2014-cü il tarixli **225** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 07, maddə 913**)
3. 10 aprel 2017-ci il tarixli **136** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 12 aprel 2017-ci il, 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 623**)
4. 6 noyabr 2018-ci il tarixli **473** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 8 noyabr 2018-ci il, 252, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2424**)
5. 15 avqust 2020-ci il tarixli **296** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 18 avqust 2020-ci il, 162, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1113**)

QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 15 avqust 2020-ci il tarixli **296** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 18 avqust 2020-ci il, 162, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1113**) ilə ləğv edilmişdir.

[2] 14 fevral 2006-cı il tarixli 47 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 2, maddə 195**) ilə

“Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollegiya üzvlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 129 nömrəli qərarının 2-ci bəndinin “Kollegiya üzvləri” hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

**Kollegiyanın üzvləri:**

| | |
|---|---|
| **Yaqubov** Hafiz Səyavuş oğlu | - Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri |
| **Əliyev** Firdovsi Şahmirzə oğlu | - Ekoloji siyasət və ətraf mühitin mühafizəsi idarəsinin rəisi |
| **Əliyev** İsa Məmmədxan oğlu | - Beynəlxalq əməkdaşlıq, xarici əlaqələr, informasiya və təbliğat idarəsinin rəisi |
| **Hüseynov** Fikrət Alxan oğlu | - İstehsalın təşkili və planlaşdırılması idarəsinin rəisi |
| **Kərimov** Nizami Hacıağa oğlu | - Elm, təhsil, ixtisasartırma və kadrlar idarəsinin rəisi |
| **Məmmədova** Sədaqət Zeynal qızı | - Bioloji sərvətlər və xüsusi mühafizə olunan ərazilər idarəsinin rəisi |
| **Şirəliyev** Səhrab Məcid oğlu | - Milli hidrometeorologiya xidmətinin rəisi |

10 iyul 2014-cü il tarixli **225** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 07, maddə 913**) ilə 2-ci hissənin “Kollegiyanın üzvləri” bölməsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

| | **Kollegiyanın üzvləri:** |
|---|---|
| **Yaqubov** Hafiz Səyavuş oğlu | - Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri |
| **Əliyev** Firdovsi Şahmirzə oğlu | - ekologiya və təbii sərvətlər nazirinin müavini |
| **Quliyev** Novruz Məhəmməd oğlu | - ekologiya və təbii sərvətlər nazirinin müavini |
| **Əliyev** İsa Məmmədxan oğlu | - beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri |
| **Hüseynov** Fikrət Alxan oğlu | - istehsalat siyasəti şöbəsinin müdiri |
| **Məmmədova** Sədaqət Zeynal qızı | - Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin direktoru |
| **Şirəliyev** Söhrab Məcid oğlu | - Milli Hidrometeorologiya Departamentinin direktoru |
| **Hacıyev** Rauf Vahid oğlu | - Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamentinin direktoru |
| **Cəlilov** Rövşən Adil oğlu | - Meşələrin İnkişafı Departamentinin direktoru |

10 aprel 2017-ci il tarixli **136** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 12 aprel 2017-ci il, 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 623**) ilə 2-ci hissənin “**Kollegiyanın üzvləri**” bölməsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

***Kollegiyanın üzvləri:***

***Əliyev** Firdovsi Şahmirzə oğlu - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini*

***Quliyev** Novruz Məhəmməd oğlu - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini*

***Hacıyev** Rauf Vahid oğlu - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini*

***Yaqubov** Hafiz Siyavuş oğlu - Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri*

***Cəlilov** Rövşən Adil oğlu - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Aparatının rəhbəri*

***Hüseynov** Xalıqverdi Cəmil oğlu - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühitin Mühafizəsi Departamentinin direktoru*

***Cavadov** Vaqif Məhəmməd oğlu - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin direktoru*

***İsmayılov** Şakir Abli oğlu - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentinin direktoru*

***Aslanov** Azər Hidayət oğlu - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekspertiza İdarəsinin rəisi*

***Səttar-zadə** Rasim İsrafil oğlu - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ekologiya və təbiəti mühafizə siyasəti şöbəsinin rəisi*

-

6 noyabr 2018-ci il tarixli **473** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 8 noyabr 2018-ci il, 252, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2424** ) ilə 2-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

2. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollegiyası aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri:**

Bağırov Hüseynqulu Seyid oğlu - ekologiya və təbii sərvətlər naziri

***Kollegiyanın üzvləri:***

*Əliyev Firdovsi Şahmirzə oğlu - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini*

*Quliyev Novruz Məhəmməd oğlu - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini*

*Hacıyev Rauf Vahid oğlu - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini*

*Yaqubov Hafiz Siyavuş oğlu - Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri*

*Cəlilov Rövşən Adil oğlu - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Aparatının rəhbəri*

*Səttar-zadə Rasim İsrafil oğlu - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının ekologiya və təbiəti mühafizə siyasəti şöbəsinin müdiri*

*Hüseynov Xalıqverdi Cəmil oğlu - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühitin Mühafizəsi Departamentinin direktoru*

*Ramazanov Xəlil Ramazan oğlu - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentinin direktoru*

*Aslanov Azər Hidayət oğlu - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekspertiza İdarəsinin rəisi*

*Əşrəfov Ramik Yunis oğlu - “Azərbaycan yaşıllaşdırma və landşaft quruluşu” Açıq Səhmdar Cəmiyyətinin sədri.*